Azərbaycan Respublikası Prezidentinin “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, “Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin fəaliyyətinin təşkili haqqında” 2017-ci il 31 iyul tarixli 1566 nömrəli, “Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında” 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli, “Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında” 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1166-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 25 iyun tarixli 141 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin

Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 415-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67, № 9, maddə 1462; 2017, № 1, maddə 65, № 7, maddə 1374; 2021, № 1, maddə 36) ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“İnvestisiya təşviqi sənədinin verilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.”;

1.2. 7-ci hissənin ikinci cümləsində “sənədini sahibkara” sözləri “sənədinin verilməsi üçün dövlət rüsumunu ödəməsi vəzifəsi barədə şifahi və ya yazılı formada sahibkara məlumat” sözləri ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda üçüncü – beşinci cümlələr əlavə edilsin:

“Sahibkar tərəfindən məlumat alındığı tarixdən 5 iş günü müddətində dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd Nazirliyə təqdim edilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd sahibkar tərəfindən Nazirliyə təqdim edildikdən sonra investisiya təşviqi sənədi 2 iş günündən gec olmayaraq sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Nazirliyə təqdim edilmədikdə, investisiya təşviqi sənədi Nazirlik tərəfindən ləğv edilir və bu barədə məlumat 2 iş günü müddətindən gec olmayaraq sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.”.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 iyul tarixli 1566 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1376, № 12 (I kitab), maddə 2309; 2018, № 11, maddə 2289; 2019, № 10, maddə 1588) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.3.2-ci yarımbənd ləğv edilsin;

2.2. 4.4-cü bəndin ikinci cümləsi ləğv edilsin.

3. “Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2311; 2018, № 11, maddə 2289; 2019, № 10, maddə 1588) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə ləğv edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş “Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası”nın 2.9-cu bəndində “Qanununa uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi” sözləri “Qanunu ilə müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş “Açıq məkanda reklam yayımına görə ödənilən haqqın məbləği”nin 3.1.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

| 3.1.2. | Elektron (rəqəmsal) daşıyıcılar (monitor, ekran, tablo və s.) | |
|---|---|---|
| 1. | 20 kvadratmetrədək olduqda | hər kvadratmetrinə görə 12,0 |
| 2. | 50 kvadratmetrədək olduqda | 240 manat + 21 – 50 kvadratmetrlik hissəsinin hər kvadratmetrinə görə 9,0 |
| 3. | 100 kvadratmetrədək olduqda | 510 manat + 51 – 100 kvadratmetrlik hissəsinin hər kvadratmetrinə görə 7,0 |
| 4. | 100 kvadratmetrdən artıq olduqda | 860 manat + 100 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə 5,0 |

4. “Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318; 2018, № 5, maddə 956; 2020, № 8, maddə 1041; 2021, № 8, maddə 926) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6.6-cı bənddən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumundan həmin Qanunun 4.1-ci maddəsinə əsasən Agentliyin hesabına köçürülən vəsaitdən, habelə” sözləri çıxarılsın;

4.2. həmin Fərmanla təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi” üzrə:

4.2.1. 5.5-ci bəndin ikinci cümləsi ləğv edilsin;

4.2.2. 5.6-cı bənddən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumundan həmin Qanunun 4.1-ci maddəsinə əsasən Agentliyin hesabına köçürülən vəsaitdən, habelə” sözləri çıxarılsın.

5. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1166-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli 141 nömrəli

Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1231) 2-ci hissəsi ləğv edilsin.

Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2021-ci il